UOT 336.71
DOI:10.30546/3006-0346.2024.5.83.065

# MALİYYƏ HESABATLARININ STATUSU, TƏYİNATI VƏ BANKLARIN İDARƏ EDİLMƏSİNDƏ ONUN ROLU

**RƏŞAD ŞƏMSİLİ**
*Bakı Biznes Universitetinin doktorantı*
*E-mail: reshad.shemsili@gmail.com*

## Giriş

Hazırda bütün dünyada qloballaşmanın artması və maliyyə bazarlarının inteqrasiyasının təsirləri diqqəti daha çox informasiya imkanlarına, eləcə də regenerativ maliyyə mexanizmlərinin inkişaf etdirilməsi ehtiyacına yönəldir ki, burada da əsas məsələ müxtəlif sahələrdə və məsələlərdə şəffaflığın təmin olunmasını şərtləndirir. Şəffaflıq məsələləri müasir dövrdə gündəmdə olan və kifayət qədər dərin, fərqli şirkətlərin, idarə və təşkilatların, xüsusilə də bank sisteminin iş prinsipində çox önəmli yer tutan məsələlərdəndir. Belə ki, istənilən sahədə, əsasən də maliyyə məsələləri olan yerlərdə şəffaf maliyyə hesabatlarının əhəmiyyətini vurğulamaq mühüm məsələdir və maliyyə nöqteyi-nəzərindən maliyyə təhlili və maliyyənin dəstəklənməsində şəffaflığın roluna diqqət etmək lazımdır. Fəaliyyət prosesində daha çox mənfəət və düzgün iş prinsipi üçün hesabatlarda, ən önəmlisi isə maliyyə hesabatlarında şəffaflığın təmin olunması mühüm, eyni zamanda da tənzimləmə zamanı müəyyən dərəcədə xərc tələb edən prosesə çevrilmişdir.

## Əsas mövzu

“Müəssisənin maliyyəsi dedikdə məhsul (iş və xidmət) istehsalı və satışı, digər fəaliyyət növlərinin həyata keçirilməsi prosesində yaranan pul münasibətləri sistemi başa düşülür.” [1]

Maliyyə hesabatları isə şirkətin bir maliyyə ili ərzində apardığı bütün əməliyyatları əks etdirən sənədlərdir və şirkətin hərtərəfli hesabat kartı və ya hesabat toplusu kimi qəbul oluna bilər. Maliyyə hesabatları bir növ mübadilə aktı kimi də qəbul oluna bilər. Lakin hər bir halda bu hesabatlar balans və mənfəət, çıxar hesabatı kimi sənədlərə istinad edir. Maliyyə hesabatları şirkətin məlumatlarının düzgün təqdim edilməsində böyük rol oynayır. İstənilən şirkətin maliyyə hesabatının düzgün şəkildə təşkili onun inkişafını təmin edən əsas sənəddir. Maliyyə hesabatlarını yoxlayaraq bir şirkətin mənfəət əldə etmək üçün hansı əməliyyatları yerinə yetirdiyini və nə qədər mənfəət və ya zərər verdiyini ətraflı öyrənmək mümkündür. Maliyyə hesabatlarının məqsədi şirkətin ümumi gəlir və çıxarını, eyni zamanda mənfəətini aşkarlamaq və düzgün planlaşdırmanı həyata keçirməkdir. Şirkət nümayəndələri və işçiləri üçün maliyyə hesabatları şirkətin mənfəəti haqqında vacib məlumat mənbəyidir. Maliyyə hesabatlarının məzmunu maliyyə təhlili apararkən və biznes strategiyalarını tərtib edərkən daha da faydalıdır [2].

Maliyyə hesabatları – mühasibat uçotu subyektinin maliyyə-təsərrüfat fəaliyyəti, habelə maliyyə vəziyyəti barədə sistemləşdirilmiş məlumatları özündə əks etdirən hesabatlardır [3].

Maliyyə hesabatları müxtəlif məqsədlər üçün hazırlana bilər. Məsələn, vergi öhdəliyini, investisiya potensialını, şirkətin bazar dəyərini müəyyən etmək üçün və s. Məqsədindən asılı olaraq hesabatların son nəticəsi fərqli olacaqdır. Ona görə də maliyyə hesabatlarını şərh edərkən hesabatın hazırlanma məqsədinə və təyinatına diqqət yetirmək lazımdır.

Qeyd edək ki, maliyyə hesabatlarında fərqlər, eləcə də müxtəlif ölkələrdəki qanunvericiliyə görə mövcud olur. Hesabatlarda tətbiq olunan standartlar qanunvericiliyin tələblərinə uyğun olaraq müxtəlif ola bilir. Hər hansı bir şirkətin maliyyə hesabatlarını yoxlayan təkcə daxili işçilər deyil. Maliyyə hesabatları şirkət məlumatı kimi vebsaytda yerləşdirilir və onlara maliyyə xidmətləri agentliyinin və ya statistika idarəsinin internet saytında da baxmaq olar. İnvestorlar, səhmdarlar və kreditorlar tez-tez maliyyə hesabatlarını yoxlayır və onlardan investisiya və əməliyyat qərarlarının qəbulu üçün əsas kimi istifadə edirlər. Məsələn, vergi orqanları vergitutmanın məqsədəuyğunluğuna əmin olmaq üçün maliyyə hesabatlarını vaxtaşırı yoxlayır. Maliyyə hesabatları şirkətdə iştirak edən bütün maraqlı tərəfləri lazımi məlumatlarla təmin etmək üçün istifadə olunur. Maliyyə hesabatı qaydalarına əlavə olaraq, müvafiq olaraq qrup şirkətləri kimi konsolidə edilmiş maliyyə hesabatlarını həyata keçirən şirkətlərin maliyyə hesabatları üçün qaydaları və şirkətlər haqqında qanunda nəzərdə tutulmuş mühasibat uçotunun hesablanması üsullarına dair qaydaları özündə əks etdirən konsolidə edilmiş maliyyə hesabatı qaydaları, eyni zamanda mühasibat uçotunun hesablanması qay-

daları da mövcuddur. Bəzi şirkətlər maliyyə hesabatlarını vergi idarəsinə açıqlamalıdırlar. Siyahıya alınmış şirkətlər və böyük şirkətlər maliyyə hesabatlarını dərc etməlidirlər. Vergi idarəsi tərəfindən tələb olunarsa, müvafiq şirkətlər öz maliyyə hesabatlarını dərhal açıqlamalıdırlar. Hətta siyahıya alınmış şirkətlər və ya iri korporasiyalar olmayan kiçik və orta müəssisələr də 3% və ya daha çox səsvermə hüququ olan səhmdarlar və ya kreditorlar tərəfindən tələb olunarsa, öz məlumatlarını açıqlamalıdırlar. Təbii ki, hesabat açıqlama tələblərinə əməl etməməyə görə cəzalar da var. Maliyyə hesabatlarını idarə edərkən bu cür açıqlama sorğularının mümkünlüyünü nəzərə almaq və düzgünlüyünü qorumaq vacibdir.

Maliyyə hesabatları şirkətlərin güclü və zəif tərəflərini dərhal ortaya qoyur və bu cəhətləri ilə şirkətlərin taleyini müəyyən edən ən mühüm amillərdən birinə çevirilir. Şirkətlərin fəaliyyəti onların maliyyə hesabatlarını müəyyən edir və bu hesabatlar şirkətin gələcək fəaliyyətini müəyyənləşdirir. Buna görə də maliyyə hesabatları və onların şəffaflığı biznes üçün vacib olduğu kimi ictimaiyyətə açıqlama mərhələsində maliyyə qiymətləndirmələrini aparacaq şəxslər üçün də eyni dərəcədə vacibdir. İctimaiyyətə açıqlanarkən istifadə edilən maliyyə məlumatlarının, xüsusən də kapital bazarında siyahıya alınmış müəssisələrin cədvəllərində şəffaflığın əhəmiyyətini və onun kapital bazarına təsirini aşkar etmək üçün hazırda bu mövzu iqtisadi sahələrdə mühüm qloballıq qazanmaqdadır.

“Maliyyə hesabatlarını düzgün tərtib etmək üçün qüvvədə olan qanunvericiliyin bütün tələblərini nəzərə alan informasiyalara malik olmaq lazımdır. Hazırda Azərbaycanda uçot və hesabatın tənzimlənməsinin dörd səviyyəli sistemi təşəkkül tapmışdır. Bu sistemin formalaşmasına ölkədə iqtisadi cəhətdən yenidənqurma, təşkilatların yeni bazar şəraitinə uyğunlaşması, habelə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Milli Mühasibat Uçotu Standartlarının hazırlanması və tətbiqi fəal rol oynamışdır” [4].

Buna baxmayaraq, hazırda ölkəmizdə maliyyə hesabatları üçün mühasibat sistemi və maliyyə qiymətləndirməsi baxımından o qədər də dayanıqlı bir nizamın olduğunu söyləmək olmaz. Əslində son illərdə yaşanan iqtisadi böhranlar nəticəsində beynəlxalq mühasibat standartlarına uyğun hüquqi tənzimləmələr gündəmə gəlib. Digər tərəfdən, bankların yenidən qurulması, maliyyə strukturlarının təkmilləşdirilməsi və fəaliyyətlərinin şəffaflaşdırılması üçün işlər aparılıb. Həm real sektorun, həm də maliyyə sektorunun əlavə dəyər yaratmağa davam etməsinə və maliyyə sektoru qarşısında ödəmə öhdəliklərini nəzərdə tutulmuş müddətdə, ağlabatan müddətdə və kreditor təşkilatlar tərəfindən məqsədəuyğun hesab edilən ağlabatan şərtlər daxilində yerinə yetirməsinə şərait yaratmaqla vəsait toplamaq, balans hesabatlarını sifariş etmək qabiliyyətini hesaba almaq kimi məsələlər də aydınlıq və şəffaflığı təmin etmək məqsədi daşıyır.

Maliyyə hesabatlarında ən önəmli məsələlərdən biri olan mənfəət təhlili şirkətin nə qədər qazanc əldə edə biləcəyinin təhlilidir [5]. Yüksək gəlirliliyin üstünlüyü vəsaitlərin cəlb edilməsini asanlaşdırır. Mənfəət təhlili ümumi mənfəət marjası və əməliyyat mənfəət marjası kimi rəqəmlərin hesablanması ilə həyata keçirilir. Ümumi mənfəət marjası satışdan satılan malların dəyərini ümumi satışa çıxarmaqla əldə edilən "ümumi mənfəət" nisbətidir.

Hesablama düsturu: Ümumi mənfəət dərəcəsi (%) = satış üzrə ümumi mənfəət + satış * 100

Maliyyə hesabatları ictimaiyyətin məlumat ehtiyaclarına cavab verən, müəyyən olunmuş qaydada müəssisə tərəfindən tərtib, təqdim və dərc olunmuş "Maliyyə vəziyyəti haqqında hesabat", "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat", "Kapitalda dəyişiklər haqqında hesabat", "Pul vəsaitinin hərəkəti haqqında hesabat" və "Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər"dən ibarət olan ümumi təyinatlı hesabatlardır [6]. Maliyyə hesabatının Beynəlxalq Standartlarında maliyyə hesabatı, onun tərtib və təqdim edilməsi "Maliyyə hesabatının təqdim edilməsi" adlı 1 saylı standart vasitəsilə tənzimlənir. Bu standarta görə hesabatın hazırlanması və təqdim olunması zamanı mövcud və təsdiq olunmuş qaydalara əməl edilməlidir. Maliyyə hesabatlarının tam siyahısına aşağıdakılar daxildir:

• Maliyyə vəziyyəti haqqında hesabat;
• Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat
• Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
• Kapitalda dəyişikliklər haqqında hesabat
• Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər;

Beləliklə, hər hansı şirkətin və ya idarənin müxtəlifyönümlü ilkin hesabatları sonrakı mərhələdə mənfəət və zərər hesabatının da formalaşmasına təsir edən mühüm amillərdəndir. Mənfəət hesabatı şirkətin mənfəət və ya zərər vəziyyətini ümumiləş-

dirir. Şirkətlər məhsul və xidmətlərin satışından gəlir əldə edirlər, lakin gəlir birbaşa mənfəətə çevrilmir və biznes əməliyyatları ilə bağlı müəyyən xərclər mövcuddur.

Hesabatlar müxtəlif kriteriyaları təmin etməklə müxtəlif üsullarla hazırlanır. Milli maliyyə hesabatlarının beynəlxalq maliyyə hesabatı standartlarına transformasiyası əsasında hesabatların hazırlanması demək olar ki, bütün dünyada qlobal məsələlərdən birinə çevirilmiş və müxtəlif müəssisələr arasında geniş vüsət almışdır. Şübhəsiz ki, hesabatların bu üsulla hazırlanması qeyri-adi bir üsul deyil, ümumi bir üsuldur. Hesabatların bu şəkildə hazırlanmasının müxtəlif önəmli səbəblərini qeyd edə bilərik:

- Tarixi. Müəssisələrin maliyyə hesabatlarının transformasiyası təşkilatlar tərəfindən ilk dəfə olaraq vəzifələrin operativ həlli üçün ən optimal üsul hesab edilmişdir;
- Qoruyucu. Bu üsula əsasən Mərkəzi Banklar üstünlük verir, hesabatların transformasiyası üsulu ilə;
- Vergi. Bu günə qədər vergi tutulan məbləğ milli standartlar əsasında müəyyən edilir. Mühasibat uçotunda baş vermiş iqtisadi əməliyyatlar yalnız vergi nəticələri baxımından şərh olunur.
- Personal. Bu üsulda milli standartlar və beynəlxalq standartlar əsasında hesabatlar hazırlayan mütəxəssislər fərqli mentalitetə, dəyərlərə, biliyə, yanaşmaya və müxtəlif dillərdə danışmasına və s. görə ikinci növ mütəxəssis hesab olunurlar. Bu vəziyyəti qərb proqramları əsasında hesabat hazırlanmasında da aydın görmək olar. Ölkə hesabından heç bir anlayışı olmayan insanlar bu proqramları hazırladığı üçün təlim əsasən dinləyicilərə yerli hesabını unudub “yeni ağ vərəq”lə başlamalarına yönəlir.
- Əqli (zehni). Təşkilatlarının rəhbərliyinin mühasibat uçotu haqqında tənzimləyici sənədlərin məcburi göstərişlərində müəyyən edilmiş qeyri-elastik qaydaların bir növ "skleti" kimi anlaşılmaması onun yarandığını başa düşməyin nəticəsidir.

Bu səbəblərin heç biri transformasiya metodunun daha effektiv olduğunu göstərmir: onun geniş yayılması metodun yaxşı olması demək deyil. Əksinə, hesabatların tərtib edilməsinin bu üsulu haqqında bir az fikirləşsək, o qədər də effektiv olmadığını görərik. İlk növbədə, təşkilat mühasibat uçotunu aparır və onun əsasında maliyyə hesabatları hazırlayır. Bu proses ilkin mərhələdən başlayır. "Təcrübədə, bir qayda olaraq materialların mədaxili və məxarici haqqındakı məlumatlar əvvəlcə anbar uçotunda əks etdirilir və sözügedən sənədlər anbardar tərəfindən reyestrlərlə birlikdə ertəsi gündən gec olmayaraq mühasibata verilir" [8]. Amma bu hesabatlar biznesin etibarlı mənzərəsini vermir, real maliyyə vəziyyətini və nəticələrini göstərmir, bunun əsasında iqtisadi qərarlar qəbul etmək təhlükəlidir. Bu nöqsanları aradan qaldırmaq üçün hesabat yenidən hazırlanmalıdır.

## Nəticə

Maliyyə hesabatları müəssisənin maliyyə sağlamlığını və əməliyyat effektivliyini anlamaq üçün daxili və xarici maraqlı tərəflər üçün əvəzolunmaz alətlərdir. Onlar şirkətin iqtisadi fəaliyyətinin maliyyə kommunikasiyası üçün əsasdır və müxtəlif maraqlı tərəflərin hərəkətlərinə və qərarlarına təsir göstərə bilər. Həmçinin maliyyə hesabatları şirkətin ümumi performansının qiymətləndirilməsində kömək edir, rəhbərlik, investor və kreditorlara qərar qəbul etməkdə vacib informasiyanı təmin edir, eləcə də müəssisəyə maliyyə risklərini müəyyən etməyə və onları ortadan qaldırmaqda bir vasitə rolunu oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. “İqtisadi təhlil”, İ.M.Mahmudov, T.Ş.Zeynalov, N.M.İsmayılov, 2010*

*2. “Maliyyə təhlili”, Müslümov S.Y, 2012*

*3. https://e-qanun.az/framework/34909, 30 Yanvar 2017*

*4. “Maliyyə hesabatı”, Səbzəliyev S, 2018*

*5. “Maliyyə hesabatının təhlili”, Məmməd İsmayılov, Yusif Əhmədov İlyas Məmmədov, Nərgiz Həsənova, 2017*

*6. https://iatm.az/bloqlar/muhasibatliq/maliyye-hesabatlari-hansilardir, 15 May 2024*

*7. BPP Learning Media. ACCA F3 Financial Accounting, 2016*

*8. “İstehsal xərclərinin uçotu və təhlili”, N.M.İsmayılov, 2013*


## XÜLASƏ


Maliyyə hesabatları adətən şirkətin birillik fəaliyyəti dövrünü əhatə edərək onun məlumatlarının şəffaf və düzgün təqdim edilməsində böyük rol oynayır. Maliyyə hesabatlarını yoxlamaqla bir müəssisənin mənfəət əldə etmək üçün hansı əməliyyatları yerinə yetirdiyini və nə qədər mənfəət və ya zərərdə olduğunu ətraflı şəkildə öyrənmək mümkündür. Bundan əlavə, sözügedən hesabatların məqsədi

şirkətin ümumi gəlir və çıxarını, eyni zamanda mənfəəti aşkarlamaq və düzgün planlaşdırmanı həyata keçirməkdir.

Nəzərə almaq lazımdır ki, müəssisənin maliyyə hesabatları müxtəlif məqsədlər üçün hazırlandığından onların nəticələri də fərqli olacaqdır. Bu baxımdan bu hesabatları analiz edərkən onun hazırlanma məqsədinə və təyinatına diqqət etmək lazımdır.

Bundan əlavə, şirkətin maliyyət hesabatında ortaya çıxan fərqlər ölkələrdəki qanunvericiliyə görə ola bilər. Həmçinin bu hesabatlarda istifadə olunan standartlar qanunvericiliyin tələbindən asılı olaraq müxtəlif ola bilər.

**Açar sözlər:** *maliyyə hesabatları, mənfəət və ya zərər, maliyyə vəziyyəti, vergi, bank.*

**Rashad Shamsili,**
***PhD student***
***Baku Business University***

**Status, purpose of financial statements and its role in banking management**

**SUMMARY**

Financial statements usually cover a company's one-year period of activity and play a major role in transparent and accurate presentation of its information. By examining the financial statements, it is possible to find out in detail what operations an enterprise has performed to make a profit and how much profit or loss it has. In addition, the purpose of mentioned reports is to reveal the company's total revenue and output, as well as profit and to carry out proper planning.

It should be taken into account that since the financial statements of the enterprise are prepared for different purposes, their results will also be different. In this regard, when analyzing these reports, it is necessary to pay attention to the purpose and its preparation.

In addition, the differences appearing in the financial report of the company may be due to the legislation in the countries. Also, the standards used in these reports may vary depending on the requirements of the legislation.

**Keywords:** *financial statements, profit or loss, financial position, tax, bank.*

**Рашад Шамсили,**
***докторант***
***Бакинский Бизнес Университет***

**Статус, цель финансовой отчетности и ее роль в управлении банком**

**РЕЗЮМЕ**

Финансовая отчетность обычно охватывает годовой период деятельности компании и играет важную роль в прозрачном и точном представлении ее информации. Изучая финансовую отчетность, можно подробно узнать, какие операции осуществило предприятие для получения прибыли и какой размер прибыли или убытка оно имеет. Кроме того, целью указанных отчетов является раскрытие общего дохода и объема производства компании, а также прибыли и проведение надлежащего планирования.

Следует учитывать, что поскольку финансовая отчетность предприятия готовится для разных целей, ее результаты также будут разными. В связи с этим при анализе данных отчетов необходимо обращать внимание на цель и его подготовки.

Кроме того, различия в финансовой отчетности компании могут быть обусловлены законодательством стран. Также стандарты, используемые в этих отчетах, могут различаться в зависимости от требований законодательства.

**Ключевые слова:** *финансовая отчетность, прибыль или убыток, финансовое положение, налог, банк.*